**ARZU BAĞIROVA**

*"Regional Hüquqi və İqtisadı Maarifləndirmə"*
*İctimai Birliyi*

***

Çox təşəkkür edirəm, Əkbər müəllim, minnət daram. Hörmətli millət vəkilləri, Azərbaycanımızın, türk dünyasının çox dəyərli ziyalıları, əziz dostlar! Mən hər birinizi salamlayıram və üzümüzə gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hələ uşaqlıqdan adını əzbər bildiyimiz, uşaqlar üçün şeirlərini əzbərlədiyimiz maarifpərvər ədibimiz Abdulla Şaiqin 140 illik yubiley konfransında çıxış imkanı üçün çox şadam. Bu gün virtual konfransda görüşürük. Ümidvaram, yaxın aylarda canlı ünsiyyət fürsətimiz olacaq. Sizləri bizim ictimai birliyimizin qərargahında, eləcə də birliyimizin düzənləyəcəyi tədbirlərdə bilavasitə görmək bizim üçün çox xoşdur. Abdulla Şaiqin adı çox vaxt maarifçiliklə qoşa çəkilir. Maarifçilik kateqoriyasında fəaliyyət bizim ictimai birliyin adı və profili ilə bilavasitə bağlıdır. Bu mötəbər konfransda mən onun üzərində durmaq istərdim ki, biz ustad ədibin seçilmiş əsərlərinin nəşrinə qərar vermişik. Bizim təşkilatın



bu yöndə birgə layihələri həyata keçib. Həmçinin də, istəyirik növbəti layihəmiz ustad ədibin seçilmiş əsərləri olsun. Ümidvaram, Abdulla Şaiqin Mənzil-Muzeyi, digər əlaqədar yaradıcı qurumlar iş yaradıcılıq planında kitabın tərtibində bizə öz mənəvi dəstəklərini əsirgəməyəcəklər. Həmin kitab bizim Abdulla Şaiqin 140 illiyinə məktəblərimizə, müəllimlərimizə, maarifçilərimizə kiçik töhfəmiz olsun. Konfransın təşkilində rol alan bütün rəsmi, ictimai, elmi qurumlarla əməkdaşlığımıza şad olarıq. Bir daha hər birinizə uğurlar diləyirəm. Diqqətiniz üçün təşəkkür edirəm.